**Quş qripi xəstəliyi ilə bağlı aradan qaldırılmış bəzi məhdudiyyətlərə dair məlumat (13 oktyabr 2022)**

Ümumdünya Heyvan Sağlamlığı Təşkilatının rəsmi məlumatına əsasən, Çexiya, Bolqarıstan, Polşa, Slovakiya, Rumıniya, Macarıstan, Xorvatiya, İtaliya, İslandiya, Portuqaliya respublikalarının, Belçika, Danimarka, Norveç, İspaniya krallıqlarının, eləcə də Rusiya Federasiyasının, İran İslam Respublikasının, Almaniya Federativ Respublikasının, Uelsin, İngiltərənin, Şotlandiyanın bəzi inzibati ərazi vahidlərində qeydə alınmış yüksək və aşağı patogen quş qripi xəstəliyi aradan qaldırılıb. Qeyd olunan ərazilərdə Ümumdünya Heyvan Sağlamlığı Təşkilatının "Quruda yaşayan heyvanların sağlamlıq Məcəlləsi"nə əsasən, yüksək və aşağı patogen quş qripi xəstəliyinin ləğv edilməsindən sonra gözləmə müddəti başa çatıb və xəstəliyə görə epizootik sağlamlıq statusu bərpa olunub.

Bununla əlaqədar, Ümumdünya Heyvan Sağlamlığı Təşkilatının "Quruda yaşayan heyvanların sağlamlıq Məcəlləsi" nəzərə alınaraq, yüksək və aşağı patogen quş qripi xəstəliyinə görə adları sadalanan ölkələrin inzibati ərazi vahidlərinə tətbiq edilmiş müvəqqəti məhdudiyyət aradan qaldırılıb.